*Peşə təhsili və insan kapitalı. Cild 9, №3, 2026, s.112-116*

# PEŞƏ TƏHSİLİ SİSTEMİNİN İNKİŞAFI VƏ ƏMƏK BAZARINA KEÇİDİN TƏHLİLİ



**Kənan Allahverdiyev,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə əyani doktorantı*
*e-mail: kenan.allahverdi.0@gmail.com*
*https://orcid.org/0009-0005-2379-4725*
*https://doi.org/10.30546/2706-7858.2026.09.3.417*

**UOT:** 33:377

**Xülasə.** *Tarixin bütün dövrlərində işsizliyin aradan qaldırılmasında peşə təhsilinin mövcudluğu və keyfiyyəti xüsusi əhəmiyyət kəsb etmişdir. Siyasətçi və tədqiqatçılar onun təhsil dünyasından iş dünyasına keçidi sürətləndirmə və əhalinin rifahının yüksəldilməsi baxımından vacibliyini vurğulasalar da, peşə təhsili sadəcə konkret bir sahəni əhatə etmir, əksinə onun da özünün konsepsiyaları və məqsədləri vardır. Peşə təhsili gəncləri əmək bazarına hazırlamaqla yanaşı, onların ümumi dünyagörüşünə, etik, sosial inkişafına birbaşa töhfə verir. Bu təhsil sistemi gəncləri əmək bazarına hazırlamaqla yanaşı, onların yaradıcı düşünmə, problemləri həlletmə və effektiv ünsiyyət bacarıqlarının inkişafına da diqqət yetirir. Məqalədə, məhz tələbələrin konkret bir peşəyə yiyələnmələrininin vacibliyi və peşə proqramlarının nə dərəcədə əhəmiyyətli olduğu araşdırılır.*

***Açar sözlər:*** *peşə təhsili, əmək bazarı, məşğulluq, standartlaşdırma, sosial inkişaf, davamlı iqtisadi inkişaf.*
***Keywords:*** *vocational education, labor market, employment, standardization, social development, sustainable economic development.*
***Ключевые слова:*** *профессиональное образование, рынок труда, занятость, стандартизация, социальное развитие, устойчивое экономическое развитие.*

Bir əsr əvvəl yazılmasına baxmayaraq John Deveyin peşə təhsili konsepsiyası və onun işə münasibətinə qarşı narahatlığı hələ də aktualdır. Sosial-iqtisadi imkanlar çərçivəsində siyasətçilər və tədqiqatçılar "peşə təhsili alan tələbələr konkret sahələrə hansı dərəcədə hazırlanmalıdır?" sualına dəqiq bir cavab tapa bilmirlər. Məlum olan bir məsələ vardır ki, gənclər həm ixtisasları ilə bağlı yüksək səviyyədə biliklərə, həm də dünya vətəndaşı ola biləcək qədər də demokratik və estetik keyfiyyətlərə sahib olmalıdırlar. J.Devey apardığı tədqiqatlarda peşə təhsili müəssisələrinin məqsədlərini, kimlər üçün əlverişli olduğunu, nə olduğunu, hansı hədəflərə çatmalı olduğunu müəyyənləşdirən milli və beynəlxalq müzakirələri daim araşdırır.

Avropa, ABŞ və dünyanın bir çox yerlərində peşə təhsili gənclər arasında məşğulluğun yüksəldilməsi baxımından əhəmiyyətli və səmərəli yol olaraq tanınır. Təhsil və təlimin keyfiyyətinin yüksəldilməsi, bu təkmilləşmənin miqyası və bu miqyasın dövlətin inkişaf siyasətinə cavab verməsi qarşıya çıxacaq problemlərin sadəcə bir

hissəsidir. Bütün bu çətinliklərə baxmayaraq təhsil qurucuları və siyasətçilər gənclərin iqtisadi çətinliklərlə qarşılaşıb ağır şərtlər altında işləməməsini təmin etmək üçün onların təhsildən iş həyatına və yetkinliyə keçidini asanlaşdıran peşə təhsili kurikulumları üzərində işləməklə, davamlı inkişafı təmin edəcək bir planı həyata keçirirlər. Bunun səbəblərindən biri də son dövrlərdə beynəlxalq səviyyədə peşə təhsilinə olan tələbin artması və bu inkişafdan geri qalmamaq üçün milli siyasətin və qiymətləndirmə üsullarının hazırlanmasıdır.

Peşə təhsili siyasətində bir tərəfdən dar çərçivə daxilində peşəyə aid olan fənlərin tədrisi, digər tərəfdən isə yetkin şəkildə keyfiyyətli həyat yaşamalarına kömək edəcək bilikləri aşılayan məzmunların öyrədilməsini əsas götürən bir proqram hazırlana bilər. Peşə təhsilində təminatın məzmunu əsas hədəfə əsasən müəyyənləşir. Proqramların məqsəd və mahiyyətini təsdiq edən ümumi və peşə təhsili qiymətləndirmə və sertifikatlaşdırma arasında əlaqə də daxil olmaqla bir sıra göstəriciləri müəyyən edə bilər. Məsələn, gənclərdən sadəcə peşələrinə aid bilikləri mənimsəmələri tələb olunur, yoxsa peşə bilikləri ilə yanaşı, ana dili və xarici dil, riyaziyyat və humanitar elmlər kimi akademik fənlərə də davam etmələri istənilirmi?

Peşə təhsili sahəsində yuxarıda qeyd etdiklərimizdən başqa maraq doğuran suallar da var: Gənclər təhsil aldıqları müddətdə cüzi miqdarda da olsa, qazandıqları işlə təmin olunurlarmı? Peşə təhsili müəssisəsi ilə təcrübə müəssisəsi birlikdə fəaliyyət göstərir, yoxsa sinif və iş yerindəki struktur fərqlidir? Tələbələrin elmi, texniki və sosial bacarıqları daxil olmaqla, onların sonda sahib olacaqları peşə biliklərini və standartları əks etdirən siyahı varmı və tədris buna uyğun aparılırmı? və s.

Peşə ixtisaslarında hazırlıq prosesi ilə təhsil konsepsiyası arasında fərqlər var. Burada qiymətləndirmə və sertifikatlaşdırma məsələləri də əsas məsələlərdəndir. Belə ki, tələbələrin yazılı rəsmi imtahanlarda iştirak edib-etməmələri, eləcə də ümumi təhsilin də ayrıca yoxlanılması proqramın əsas məqsəd və xarakterini müəyyən edir. Maraqlıdır ki, əgər imtahanda ümumi təhsil yoxlanılırsa və bu zaman tələbələrə müxtəlif proqramlar arasında keçidi asanlaşdıracaq akademik və peşə bilikləri haqqında ikili sertifikat əldə etməyə imkan verilirmi, yoxsa keçirilən imtahanlar peşə səriştəsi və peşə təcrübəsinin qazanılmasının akkreditasiyası ilə məhdudlaşır? Bundan başqa, tələbələr bakalavr dərəcəsi üzrə təhsil almaq və ya əmək bazarına daxil olmaq istəsələr ixtisasları üzrə əldə etdikləri biliklər bu yolda nə dərəcədə əhəmiyyətlidir? Məqalədə peşə təhsili, onun nələri özündə cəmləməsi və necə daha geniş təhsil və məşğulluq kütləsinə çata bilməsi ilə bağlı mübahisə və peşə nəzəriyyələrini təhlil etmək istərdik.

Peşə təhsili sadəcə gənclər üçün nəzərdə tutulmamışdır, əksinə, burada yaşlılar, qadınlar və yeni bilik və bacarıqlara yiyələnmək istəyən hər kəs təhsil alaraq qısa zaman ərzində iş dünyasına atıla bilər. Peşə təhsili bir çox səbəblərdən dünyanın hər yerində təhsilin əhəmiyyətli bir növü kimi qiymətləndirilir. Peşə təhsili müasir həyatı dəstəkləyən infrastrukturun qurulması, xəstələrin müalicəsi, maşın və avadanlıqların istehsalı və təmiri, qonaqpərvərlik və istirahət xidmətlərinin göstərilməsi, telekommunikasiya sahəsində texnoloji yeniliklər və s. kimi olduqca geniş ixtisas sahəsini özündə cəmləməklə necə əhəmiyyətli olduğunu bariz şəkildə göstərir. Ona görə də Diane Şeyv bu qədər geniş sahədə xidmət göstərə bilən bir təhsil sistemində texniki biliklərə sahib olub, şəxsi bacarıqlara sahib olmamanın cəmiyyətə vuracağı zərərdən narahat idi. Bu baxımdan da o, peşə təhsili müəssisələrində texniki fənlərlə yanaşı, tələbələrə etikanı aşılayan və şəxsi bacarıqların inkişafına dəstək olan fənlərin tədris edilməsi fikrini dəstəkləyir [1, s.32].

Peşə təhsili ilə bağlı aparılan, xüsusilə islahatların zəruriliyi haqqında olan müzakirələr heç də birtərəfli qarşılanmasa da, əksər tədqiqatçılar peşə təhsilinin iqtisadi rəqabətliliyini yüksək qiymətləndirir, davamlı inkişaf və sosial məşğulluq kimi sahələrdə əhəmiyyətli rola sahib olduğunu vurğulayırlar. Rəqabətqabiliyyətlilik siyasətinin əsasında peşə təhsili müəssisələrinin yaxşılaşdırılması və innovativ cihazlardan istifadə durur. 2016-cı ildə Klaus Yakobs tərəfindən Almaniya və digər Avropa ölkələrinin qarşılıqlı müqayisəsi əsasında aparılan araşdırmada alman firmalarının daha yaxşı olduğu və uğurun sirrinin yüksək texniki səriştələrə sahib olan kadrlardan gəldiyi müəyyən oldu [2, s.53]. Tədqiqatın aparıl-

masında əsas məqsəd mülahizələrdə və qərar qəbuletmə prosesində işçilərin də iştirakını təmin etməklə daha yüksək əlavə dəyərin təşkilində məhsulların yaradılmasına təkan verməkdir. Buradan da aydın görünür ki, peşə təhsili sistemində uğurlu olan ölkələrin qlobal iqtisadi rəqabətdə də uğurlu olma ehtimalları daha yüksəkdir. Almaniya isə bu sahədə örnək ölkələrdən biridir.

Peşə təhsili müəssisələri məktəbi bitirdikdən sonra ali təhsil müəssisələrinə daxil ola bilməyən və ya bunu istəməyən gənclərin məşğulluğunu və sosiallaşmasını təmin edən bir vasitə kimi qiymətləndirilir. Peşə təhsili ixtisasları üzrə akademik və nəzəri fənlərin tədrisi mənasız olub, daha çox praktik bilik və bacarıqlara üstünlük verilməlidir. Amerikalı filosof Riçar "The Craftsmann" əsərində təcrübə ilə nəzəriyyəni bir-birindən ayıran texnika və üslüb, sənətkar və usta, istehsalçı və istehlakçı kimi incə xətləri qeyd etmişdir. O, həmin kitabında sənətkarlar və ustaların keçmiş həyatı, alətlərdən necə istifadə üsulları, bədən hərəkəti formaları, qalan materiallardan səmərəli istifadə haqqında düşünmək və s. kimi həyati bacarıqlara yiyələnməyin üstünlüyü və necə yiyələnəcəyi haqqında təkliflər verir.

Dilin tərkibinə gəldikdə isə peşə təhsilində istifadə olunan terminlər prosesi başa düşmək üçün olduqca əhəmiyyətlidir. Məsələn, almanlarda təlim sözü üç fərqli formada özünü göstərir. Onlardan biri heyvanları əhliləşdirmək mənasına gələn "abrichten" sözüdür. "Anlernen" və "ausbilden" sözlərinin hər ikisi də insana aid işlədilir, lakin arada kiçik bir fərq vardır. "Anlernen" feili nəyisə səthi, işə yarayacaq qədər öyrənməkdir, "ausbilden" feili isə işi nəzəri və praktik olaraq dərindən öyrənmək mənasında işlədilir. Dil məsələsinin əhəmiyyəti peşə təhsilinin konseptuallaşdırılması və anlaşılmasında mədəni fərqlilikləri ortaya qoyur və peşə təhsili xüsusiyyətlərinin bir ölkədən digərinə inteqrasiyasının asan olmadığını göstərir.

***Niyə fərqli ölkələrdə peşə təhsilinin fərqli modelləri mövcuddur?***

Peşə təhsilinin təşkil və təmin edilməsində müxtəlif təcrübələr mövcuddur. Belə ki, peşə təhsili və iqtisadi rəqabətlilik arasındakı əlaqədə milli və beynəlxalq maraqlar nəzərə alınaraq sistemlərin xüsusiyyətləri və oxşar quruluşda olan ölkələrin qruplaşdırılması üçün yollar düşünülmüşdür. Sosial yanaşma müxtəlif sosial və iqtisadi institutlar, təlim, tədris, əmək bazarı, sənaye münasibətləri, istehsal sistemi, ailə quruluşları və mədəniyyətləri və s. arasında qarşılıqlı əlaqələri özündə cəmləşdirir.

Ölkələrin təsnif edilməsi üçün müəyyən ölçü və konsepsiyalara əsaslanan, əsas etibarilə ölkələrdən əldə edilən və ölkələrarası sorğuların müqayisəsi əsnasında ortaya çıxan bir sıra ölkə tipologiyaları hazırlanmışdır. Müqayisəli ədəbiyyatın təhlilindən aydın olur ki, bu təsnifatlar arasında üçü xüsusilə vacib və bir-birləri ilə əlaqəlidirlər: Bunlar ölkədəki "məntiqlər və əlaqələr", "standartlaşma" və "təbəqələşmə"dir. Peşə təhsili və əmək bazarı arasındakı əlaqə onları sənaye tarixçələri, vətəndaş və demokratik mədəniyyət, əlaqəli institut və tənzimləmələrdən asılı olaraq ölkələr arasında fərqlilik göstərir. Aparılan araşdırmalar onu göstərir ki, peşə təhsili və məşğulluq arasında özünü göstərən zəif əlaqələr həmin ölkənin təhsil məntiqinə uyğun olmayan, peşə təhsili və məşğulluq arasında keyfiyyətli əlaqələr quran ölkələrin fəaliyyəti isə tam olaraq təhsil məntiqinə uyğundur [3, s.17]. Burada əmək bazarının xarakteri və onun necə tənzimləndiyi xüsusi əhəmiyyət kəsb edir. Danimarka və Almaniya kimi peşə təhsilinə xüsusi diqqət yetirən ölkələr həm institutlara, həm təhsilalanlara, həm də iş yerlərini dövlət nəzarətində saxladığından orada ABŞ və Böyük Britaniya kimi daha çevik əmək bazarına sahib olan ölkələrə nisbətən gənclərin əmək bazarına uyğunlaşması daha asan olur.

Standartlaşdırma dedikdə, peşə təhsili kurikulumlarının məzmunu, onların izlənildiyi və qiymətləndirildiyi proses nəzərdə tutulmaqla, işəgötürənlərin müəssisəni bitirənlərin bilik və bacarıqlarını daha dəqiq təxmin etmələrinə xidmət göstərir. Standartlaşma olduqca vacib bir proses olmaqla vahid standartlara malik olan sistemlərdə məzunların işə keçid prosesini asanlaşdırır. Bu da bütün müəssisələrin bir standart üzrə qurulması üçün əsas işlərdən biri olmalıdır.

Gənclərin məktəbdə qalıb qalmamasına səbəb olan əsas amil ölkədəki təhsil sistemidir. Bir ölkədə təhsil sisteminin mərtəbələrinin (pillələrinin) sayı nə qədər çoxdursa, gənclərin məktəbdə qalma istəkləri bir o qədər az olur. Məsələn, Kanada kimi ölkədəki gənclərin əksəriyyətinin

universitet oxuması, o ölkədə şagirdlik sisteminin zəif qurulduğunu göstərir. OECD-nin verdiyi məlumatlara görə, Kanadada 25-34 yaş arası gənclərin 62%-i ali təhsilli olduğu halda, eyni yaş aralığında almanların sadəcə 32%-nin ali təhsili vardır [4]. Ölkə tiplərinin müəyyənləşdirilməsi və buna görə kateqoriyalaşdırılması məntiq, əlaqə və standartlaşma arasında əlaqənin mövcudluğunu göstərir. Kerckhovun fikrinə görə, ölkələr iki tipə bölünür. Onlardan birincisi, Almaniya kimi güclü standartlaşdırmaya və təhsil müəssisələri ilə əmək bazarı arasında əlaqələrə ciddi əhəmiyyət verən ölkələr, ikincisi isə Amerika Birləşmiş Ştatları kimi proqramları qeyri-standart olan, peşə təhsili ilə əmək bazarı arasındakı əlaqələrə az əhəmiyyət verən ölkələrdir. Böyük Britaniya və Fransa kimi ölkələri hər hansı bir tipə aid etmək çətin olduğu üçün bunlar iki tip arasında qalan ölkələr kimi təsnif olunurlar.

Ölkədə peşə təhsilinə münasibətin və onun təşkilinin fərqli olmasının əsas səbəbi dövlətin peşə təhsili sisteminin əsasını təşkil edən institusional və ictimai yanaşmaların tərtib edilməsində oynadığı roldur. Təhsil sisteminin qurulmasında, tənzimlənməsində, dəstəklənməsində dövlət birbaşa olaraq iştirak etməlidir. Bu yolla dövlət həm siyasi və iqtisadi mühitə təsir edər, həm də bu sosial münasibətlərlə yanaşı, dövlətin mərkəzi idarəetmə təşəbbüsünü də özündə göstərər.

Əmək bazarına nəzarət etmək nöqteyi-nəzərindən ölkələr üç əsas qrupa bölünürlər. Onlardan birincisi ABŞ, Kanada və Böyük Britaniya kimi ölkələrin istifadə etdiyi "sərbəst bazar" modelidir və bu model də dövlətin kapital və əmək münasibətlərinə çox qarışmır. Burada dövlətin funksiyası sadəcə bazarda "kapitalın əmək bazarında dominantlığını" tənzimləyən qanunvericilik bazasının təmin edilməsindən ibarətdir. Buradan belə nəticəyə gələ bilərik ki, burada dövlətin başlıca töhfəsi vətəndaşlara ümumi orta təhsil və ölkənin inkişafına dəstək verəcək təhsil sisteminin qurulması və onun saxlanılmasından ibarətdir. Bundan sonra təhsilin inkişafının məsuliyyəti artıq fərdlərin və müəssisələrin üzərinə düşür. Təlim prosesinin müxtəlif formaları var. Bəzi müəssisələr kadr tələbini peşə məktəblərilə qurduqları əməkdaşlıqdan ödəyir, bəziləri isə şirkət daxilində təlim mərkəzləri quraraq, öz kadrlarını özləri hazırlayırlar.

İkincisi, birinci modelin tam əksi olan Danimarka və Almaniya kimi ölkələrin istifadə etdiyi "korporatist" modeldə dövlət kapital-əmək münasibətlərinə müdaxilə etməklə ilkin sənaye müəssisələrinin və iqtisadi inkişaf etmək üçün sosial tərəfdaşlıqların qurulmasını təmin edir. Bu modeldə iş və təhsil müəssisələri təlim və təhsil prosesi vəhdətdə götürülməklə bir-birlərinə dəstək olurlar.

***"İnkişaf etməkdə olan dövlət"*** adlanan üçüncü dövlət modelində isə aşağı sənaye və təhsil bazasından başlayaraq ən yuxarılara qədər bütün münasibətlərin formalaşmasında dövlət birbaşa pay sahibidir.

Hər üç modeldən yola çıxaraq deyə bilərik ki, peşə təhsilini birbaşa olaraq işəgötürənlərə həvalə etmək konkret təşkilatların ehtiyaclarının ödənilməsində effektiv olsa da, korporativ üsulla yüksəkixtisaslı kadrların yetişdirilməsi daha məqsədəuyğundur. Dövlətin əsas söz sahibi olduğu yerlərdə işə götürənləri "innovativ istehsal üsullarını tətbiq etməyə", tələbələri isə "əmək bazarının tələblərinə uyğun bacarıqları öyrənməyə" sövq etmək olar.

İş və təhsil sektorunda günü-gündən artmaqda olan rəqabətə uyğunlaşmaqda sadəcə peşə təhsili almaq kifayət qədər effektiv deyildir. Peşə təhsili müəssisələrində tədris zamanı iş sektoru ilə də əlaqələr qurmaq, oradakı tələbləri mütəmadi olaraq izləyərək, iş dünyasında baş verən dəyişikliklərdən xəbərdar olmaq lazımdır. Bugünədək aparılan araşdırmalar təhsil və iş müəssisələri arasında qurulmuş əməkdaşlıqların məzunların iş tapmasında mühüm rol oynadığını isbat edir, yəni təlim və istehsal təcrübəsi yanaşı aparılmaqla, peşə təhsili müəssisələrində tələbələr aldıqları nəzəri bilikləri istehsal təcrübəsində praktikadan keçirərək həm biliklərini mökhəmləndirə, həm də təcrübə qazana bilərlər.

**Nəticə.** Aparılan təhlil peşə təhsilinin yalnız əmək bazarının cari tələblərini ödəyən texniki hazırlıq mexanizmi deyil, eyni zamanda sosial rifahın yüksəldilməsi, davamlı iqtisadi inkişafın təmin edilməsi və fərdlərin çoxşaxəli formalaşması baxımından strateji əhəmiyyətə malik bir təhsil sahəsi olduğunu göstərir. Müasir və tarixi yanaşmalar, Deyv, Şeyv və digər tədqiqatçıların araşdırmaları peşə təhsilində sadəcə ixtisasla çərçivələndikdə potensialın itirildiyini, yaxud da əksinə texniki bi-

liklərlə yanaşı, sosial, estetik, etik və vətəndaş keyfiyyətlərinin inkişafına xidmət edən inteqrativ modelin daha səmərəli olduğunu sübut edir.

Apardığımız müqayisələr peşə təhsili və əmək bazarı arasında güclü əlaqələrin olduğunu, standartlaşmanın yüksək olduğunu və dövlətin tənzimləyici qismində çıxış etdiyi ölkələrdə gənclərin məşğulluq nisbətinin yüksək olduğunu göstərir. Almaniya və Danimarka kimi Avropanın öndə gələn ölkələri qurduqları korporatist modellər ilə peşə təhsili sahəsində yüksək texniki səriştəyə malik, sərbəst qərarvermə qabiliyyəti olan və innovativ istehsalata töhfə verən kadrların hazırlanmasının mümkünlüyünü sübut etdilər. Onu da qeyd etmək lazımdır ki, sərbəst bazar modelinin üstünlük təşkil etdiyi ölkələrdə peşə təhsili və sənaye müəssisələri arasında qurulan əlaqələrin zəifliyi gənclərin əmək bazarına keçidində bir sıra çətinliklərə səbəb ola bilər. Peşə təhsili sahəsindəki ixtisasların qısa müddət ərzində öyrənilməsi ömürboyu təhsil çərçivəsində yaşlılar, qadınlar və yeni bacarıq əldə etmək istəyən hər kəs üçün əhəmiyyətini artırır. Ümumiyyətlə, peşə təhsilinin uğurlu olması onun milli kontekstdə uyğun, lakin qlobal iqtisadi və sosial prosesləri nəzərə alan proqramların hazırlanması ilə əlaqədardır. Dövlət, sənaye və təhsil müəssisələri arasındakı davamlı əməkdaşlıq peşə təhsili sahəsində həm fərdi inkişafın, həm də rəqabətqabiliyyətli iqtisadiyyatın əsas sahələrindən birinə çevrilə bilər. Ona görə də peşə təhsili sisteminin potensialının gücləndirilməsi yalnız məşğulluq nisbətinin artmasının həlli kimi deyil, həm də daha ədalətli, inklüziv və dayanıqlı cəmiyyətin qurulmasında rol oynayan uzunmüddətli strateji həmlə kimi qiymətləndirilməlidir.

## İstifadə edilmiş ədəbiyyat


1. Shawe D. Do we have meaningful adult education? 2019.
2. Jacobs K, Kuhlmey A, Gress S. Die Pflegenden im Fokus. Stuttgart, Schattauer, 2016.
3. Hiim H. How can collaboration between schools and workplaces contribute to relevant vocational education? New York City: Vocations and Learning, 2023, 16 (1), pp.1-21.
4. https://www.oecd.org/en/topics/sub-issues/education-attainment.html#:~:text=On%20average%20across%20OECD%20countries%2C%2040%25%20of%20adults%20(25,obtained%20an%20upper%20secondary%20education.)


K.Allahverdiyev

## Analysis of the devolopment of vocational education systems and transition to the laber market


**Abstract**

The availability and quality of vocational education has been of particular importance in eliminating unemployment throughout history. Although politicians and researchers emphasize its importance in terms of accelerating the transition from the world of education to the world of work and improving the well-being of the population, vocational education does not just cover a specific field, but also has its own concepts and goals. Vocational education not only prepares young people for the labor market, but also directly contributes to their general worldview, ethical, and social development. This education system, in addition to preparing young people for the labor market, also focuses on the development of their creative thinking, problem-solving, and effective communication skills. The article, examines the importance of students mastering a specific profession and importance of vocational programs.


К.Аллахвердиев

## Анализ развитая систем профессионалального образования и перехода на рынок труда


**Аннотация**

На протяжении всей истории доступность и качество профессионального образования имели особое значение в ликвидации безработицы. Хотя политики и исследователи подчеркивают его важность для ускорения перехода от сферы образования к сфере труда и повышения благосостояния населения, профессиональное образование не просто охватывает определенную область, а имеет свои собственные концепции и цели. Профессиональное образование не только готовит молодых людей к рынку труда, но и напрямую способствует их общему мировоззрению, этическому и социальному развитию. Эта система образования, помимо подготовки молодых людей к рынку труда, также фокусируется на развитии их творческого мышления, навыков решения проблем и эффективного общения. В статье рассматривается важность освоения студентали конкретной професси и важность програми профессиона и важность програми профоссионалъного обучения.